**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədrinin " 24 "dekabr 2014-cü il tarixli 358K № li əmri ilə təsdiq edilmişdir**

# VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Dövlət orqanının adı:** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **Sektorun adı:** | Beynəlxalq əlaqələr sektoru |
| **Vəzifənin adı:** | məsləhətçi |
| **Vəzifə maaşı:** | 500 manat |
| **Vəzifə təsnifatı:** | inzibati vəzifələrin 5-ci təsnifatı |
| **İş yerinin ünvanı:** | Bakı şəhəri, Nərimanov rayonu, K.Rəhimov küçəsi, 874-cü məhəllə |
| **Bilavasitə tabe olduğu şəxs:** | sektor müdiri |
| **Qulluq funksiyaları:** | – sektorun fəaliyyəti üzrə kargüzarlıq işinin həyata keçirilməsi;<br>– sektorun fəaliyyəti ilə bağlı sənədlərin tərcümə edilməsi;<br>– dövlət qulluğu sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və həmin təcrübənin tətbiqi ilə əlaqədar təkliflərin hazırlanması;<br>– ölkədə və xaricdə müxtəlif tədbirlərin keçirilməsi ilə bağlı təşkilati işlərin görülməsi;<br>– Komissiyanın xidməti ezamiyyətə gedən vəzifəli şəxslərinə müvafiq növ pasportların və çıxış sənədlərinin vaxtında rəsmiləşdirilməsinin təşkil edilməsi;<br>– sektor müdirinin tapşırığı ilə hesabatlar, arayışlar və məlumatların hazırlanması;<br>– ölkə daxilində və xaricdə təlimlərin təşkili ilə bağlı dövlət qurumlarının müvafiq nümayəndələri ilə əlaqə saxlanılması və digər təşkilati işlərin həyata keçirilməsi;<br>– vəzifəsi üzrə sektor müdiri tərəfindən verilən tapşırıqları yerinə yetirir. |
| **İxtisas tələbləri:** | beynəlxalq münasibətlər, beynəlxalq hüquq, filologiya və dilşünaslıq ixtisasları üzrə ali təhsil |
| **Staja dair tələb:** | yoxdur |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS WINDOWS, MS OFFICE, INTERNET və s.) – orta-yüksək səviyyədə |
| **Xarici dil bilikləri:** | rus dili (yüksək səviyyədə), ingilis dili (yüksək səviyyədə) |
| **Təşkilatçılıq səriştəsi:** | orta səviyyədə |
| **Problemi həll etmək səriştəsi:** | orta səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | orta səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | yüksək səviyyədə |

**Qeyd:** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bu vəzifə müsabiqə və ya müsahibə yolu ilə tutulur.